UOT-811.512.162
Səhifə: 192-199
https://doi.org/10.59849/2663-8967.2026.2.192

Nuranə Allahverdiyeva
Bakı Avrasiya Universiteti
nurane.ava93@gmail.com

XOCAVƏND RAYONUNUN SİNTAKTİK ÜSULLA YARANAN TOPONİMLƏRİ

XÜLASƏ

Mürəkkəb quruluşlu oykonimlərin formalaşmasında iştirak edən topoformantlar və onları yaradan leksik vahidlər leksik-semantik və leksik-qrammatik xüsusiyyətlərinə görə müxtəliflik nümayiş etdirir. Belə oykonimlərin strukturunda ikinci komponent kimi çıxış edən topoformantlar əksər hallarda isimlərlə ifadə olunur və yaşayış məntəqəsinin tipini, xarakterini və ya aid olduğu coğrafi obyekt növünü göstərir. Birinci komponent isə əsasən isim və sifətlərdən ibarət olmaqla yanaşı, bəzi hallarda saylar, eləcə də substantivləşmiş digər nitq hissələri vasitəsilə də ifadə edilə bilir. Azərbaycan dilində söz yaradıcılığı və mürəkkəb adların formalaşması məsələsinə münasibətdə tədqiqatçılar arasında müəyyən fərqli yanaşmalar da mövcuddur. R. Əliyeva qeyd edir ki, hər bir dilin daxili quruluşundan irəli gələn özünəməxsus qanunauyğunluqları vardır. Azərbaycan dili iltisaqi dillər qrupuna aid olduğuna görə burada həm şəkilçilərin funksional yükü, həm də söz sırası mühüm rol oynayır. Alimin fikrincə, şəkilçilərin sıralanmasında müəyyən semantik ardıcıllıq müşahidə olunur: konkret məna ifadə edən şəkilçilər kökə daha yaxın mövqedə yerləşdiyi halda, mücərrəd və ümumiləşdirici məna daşıyan şəkilçilər kökdən nisbətən uzaqda işlənir. Bu xüsusiyyət toponimlərin strukturunda da öz əksini tapır və onların komponentlərinin düzülüşündə müəyyən qanunauyğunluqlar yaradır.

Mürəkkəb toponimlərin bir qrupunda diqqəti cəlb edən maraqlı cəhətlərdən biri onların tərkibində yer alan coğrafi nomenlərin təkrarlanması ilə bağlıdır. Belə ki, bəzi coğrafi terminlər müstəqil leksik məna daşımaqla yanaşı, yeni yaşayış məntəqə adlarının formalaşmasında da iştirak edir. Lakin həmin terminlər toponimin tərkibində artıq mövcud olmasına baxmayaraq, sonradan eyni coğrafi obyekt növünü bildirən əlavə söz də işlədilir. Nəticədə yaşayış məntəqəsinin adı ilə onun növünü göstərən komponent arasında semantik təkrarlanma yaranır. Məsələn, Ağkənd kəndi, Ağcakənd kəndi, Qarakənd kəndi kimi adlarda "kənd" komponenti həm oykonimin tərkibində yer alır, həm də yaşayış məntəqəsinin növünü müəyyənləşdirmək məqsədilə ayrıca söz kimi yenidən işlədilir. Bu hadisə toponimiyada tavtoloji quruluşun yaranmasına səbəb olur və coğrafi adların nominasiya xüsusiyyətlərini öyrənmək baxımından maraqlı dil faktı kimi qiymətləndirilə bilər. Belə nümunələr bir tərəfdən tarixi adyaratma proseslərinin izlərini qoruyub saxlayır, digər tərəfdən isə inzibati və coğrafi təsnifatın daha aydın ifadə olunmasına xidmət edir.

Açar sözlər: *oykonim, topoformant, mürəkkəb toponimlər, coğrafi nomen, tavtoloji toponimlər.*

Giriş: Azərbaycan toponim sistemi zənginliyi və rəngarəngliyi ilə seçilir. Bu sistemin tərkib hissəsi olan Xocavənd rayonu oykonimləri də öz semantik, struktur və etimoloji xüsusiyyətləri ilə diqqəti cəlb edir. Rayonda mövcud olan yaşayış məntəqə adları müxtəlif tarixi dövrlərin, etnik proseslərin və dil qatlarının izlərini qoruyub saxlamışdır. Həmin oykonimlərin terminoloji baxımdan araşdırılması onların yaranma prinsiplərinin, struktur xüsusiyyətlərinin və adlandırma motivlərinin müəyyənləşdirilməsinə imkan yaradır.

Məqalənin məqsədi Xocavənd rayonu ərazisində qeydə alınmış oykonimlərin terminoloji xüsusiyyətlərini araşdırmaq, onların struktur-semantik quruluşunu təhlil etmək, formalaşmasında iştirak edən topoformantları və leksik vahidləri müəyyənləşdirməkdir. Tədqiqat zamanı

oykonimlərin yaranma yolları, onların leksik-semantik qrupları və terminoloji xüsusiyyətləri nəzərdən keçirilir, əldə olunan nəticələr Azərbaycan toponimikasının ümumi problemləri kontekstində dəyərləndirilir.

Toponimik adların formalaşmasında ən məhsuldar üsullardan biri sintaktik yoldur. Coğrafi adların əhəmiyyətli bir hissəsi müxtəlif nomenklatur terminlərin iştirakı ilə meydana gəlir ki, bu xüsusiyyət yaşayış məntəqə adlarının yaranmasında da aydın şəkildə müşahidə olunur. Bununla belə, sintaktik üsulla yaranan toponimlərin mahiyyəti və yaranma mexanizmi ilə bağlı tədqiqatçılar arasında fərqli yanaşmalar mövcuddur.

T.Əhmədovun fikrincə, Azərbaycan dilində ümumi söz yaradıcılığı prosesində leksik, morfoloji və sintaktik üsullar iştirak etsə də, toponimlərin yaranmasında əsas və həlledici rol sintaktik üsula məxsusdur. Alim qeyd edir ki, Azərbaycan toponimik sisteminin araşdırılması zamanı hər hansı leksik vahiddən birbaşa yaranmış və ya şəkilçilər vasitəsilə formalaşmış sadə və düzəltmə oykonimlərə demək olar ki, rast gəlinmir. Bu xüsusiyyət toponimlərin digər dil vahidlərindən fərqli şəkildə təşəkkül tapdığını göstərir [6, s.150].

Tədqiqatçıya görə, hazırda sadə və ya düzəltmə quruluşlu görünən bir çox toponim əslində ilkin mərhələdə sintaktik yolla formalaşmış mürəkkəb adların nəticəsidir. Tarixi inkişaf prosesində həmin adların tərkibində yer alan coğrafi nomenlər və ya müəyyənləşdirici terminlər tədricən istifadədən çıxmış, ixtisara uğramış və nəticədə toponim daha yığcam formaya düşmüşdür. Beləliklə, müasir dövrdə sadə və ya düzəltmə xarakter daşıdığı təəssüratı yaradan toponimlər əslində öz mənşəyinə görə sintaktik üsulla yaranmış mürəkkəb adların transformasiyası nəticəsində meydana gəlmişdir.

A.Bayramovun mövqeyinə görə, Azərbaycan toponimikasında coğrafi adların yaranmasının əsasını sintaktik üsul təşkil edir. Alim hesab edir ki, ümumi dil sistemində sözlərin leksik, morfoloji və sintaktik yollarla əmələ gəlməsinə baxmayaraq, bu qanunauyğunluq toponimlərə tam şəkildə şamil edilə bilməz. Onun fikrincə, yer adları əsasən söz birləşmələri əsasında formalaşır və sintaktik quruluş onların yaranmasının başlıca vasitəsi kimi çıxış edir.

Tədqiqatçı həmçinin qeyd edir ki, şəxs adları, etnonimlər, zoonimlər, fitonimlər və digər leksik vahidlər əsasında yaranmış bir sıra coğrafi adların tərkibində əvvəllər mövcud olmuş coğrafi terminlər sonrakı dövrlərdə ixtisara uğrayaraq işləkliyini itirmişdir. Lakin həmin komponentlərin zamanla aradan çıxması bu toponimlərin ilkin yaranma modelinin sintaktik xarakter daşıdığını dəyişmir. Tarixi inkişaf prosesində adların strukturunda baş verən sadələşmələr nəticəsində insanlar daha qısa və istifadəsi asan olan variantlara üstünlük vermiş, bununla da bir çox yer adları öz ilkin formasından müəyyən dərəcədə uzaqlaşmışdır. Buna baxmayaraq, onların yaranma əsasını təşkil edən sintaktik model öz izlərini qoruyub saxlamaqdadır [4, s.27].

Sintaktik yolla formalaşmış toponimlərin müəyyən qrupunda diqqəti cəlb edən xüsusiyyətlərdən biri onların tərkibində yer alan coğrafi terminlərin təkrarlanmasıdır. Belə ki, bəzi nomenklatur vahidlər Azərbaycan dilində həm müstəqil leksik məna daşıyır, həm də yeni yaşayış məntəqə adlarının yaranmasında iştirak edir. Bununla yanaşı, həmin terminlər toponimin tərkibində mövcud olmasına baxmayaraq, yaşayış məntəqəsinin növünü daha aydın ifadə etmək məqsədilə sonradan eyni coğrafi göstərici yenidən adın tərkibinə əlavə olunur. Nəticədə semantik baxımdan təkrarlanan komponentlər meydana çıxır.

Bu cür nümunələrə Xocavənd rayonunun oykonimləri arasında da rast gəlinir. Məsələn, Qarakənd kəndi, Mirikənd kəndi, Ağkənd kəndi, Quzumkənd kəndi, Ağcakənd kəndi və Dərəkənd kəndi kimi adlarda "kənd" sözü həm oykonimin əsas tərkib hissəsi kimi çıxış edir, həm də yaşayış məntəqəsinin statusunu bildirmək üçün ayrıca işlədilir. Belə hallar toponimlərin tarixi inkişaf mərhələlərində baş vermiş struktur dəyişikliklərinin nəticəsi kimi qiymətləndirilə bilər.

Q.Məşədiyev də yaşayış məntəqə adlarının struktur xüsusiyyətlərini araşdırarkən qeyd edir ki, oykonimlərin müəyyən hissəsi zahirən mürəkkəb sözlərə bənzəsə də, onların yaranma modeli ümumi mürəkkəb sözlərdən fərqlənir. Bu fərqin əsas səbəbi həmin adların formalaşmasında məkan və ya yaşayış yeri mənası ifadə edən xüsusi leksik vahidlərin fəal iştirak etməsidir. Məhz bu xüsusiyyət mürəkkəb quruluşlu oykonimlərin özünəməxsus struktur-semantik xüsusiyyətlərini müəyyənləşdirir [9, 112].

Birinci növ təyini söz birləşmələri əsasında yaranan oykonimlər.

Xocavənd rayonu oykonimlərinin bir hissəsi birinci növ təyini söz birləşmələri əsasında formalaşmışdır. Bu tip adlar əsasən iki kök morfemin birləşməsindən meydana gəlir. Belə oykonimlərdə birinci komponent müəyyən əlamət, mənsubiyyət və ya fərdilik bildirən sözlə ifadə olunur, ikinci komponent isə yaşayış məntəqəsinin yerləşdiyi coğrafi obyekti və ya relyef xüsusiyyətini əks etdirən leksik vahid kimi çıxış edir.

Komponentlərin semantik və qrammatik xüsusiyyətlərinə əsasən bu qəbildən olan oykonimləri bir neçə qrupa ayırmaq mümkündür. Onlardan biri birinci tərəfi xüsusi isimdən, ikinci tərəfi isə ümumi isimdən ibarət olan oykonimlərdir. Mirikənd, Məmmədd**ə**rə, Mülküd**ə**rə və digər bu tip adlar həmin qrupa daxildir.

Mirikənd oykonimi xüsusi isimlə coğrafi termin bildirən sözün birləşməsi nəticəsində yaranmışdır. Adın birinci komponenti şəxs adı olan "Miri", ikinci komponenti isə yaşayış məntəqəsini bildirən "kənd" sözüdür. Buna görə də oykonim semantik baxımdan "Miriyə məxsus kənd" və ya "Mirinin kəndi" mənasını ifadə edir.

Məmməddə**rə** oykonimi də sintaktik yolla formalaşmışdır. Bu ad "Məmməd" şəxs adı ilə "dərə" coğrafi terminin birləşməsindən əmələ gəlmişdir. Toponimin ikinci komponenti olan "dərə" mənfi relyef formasını ifadə edən coğrafi nomen kimi çıxış edir. Beləliklə, oykonimin ilkin mənası "Məmmədə aid dərə" və ya "Məmməd dərəsi" şəklində izah olunur.

Birinci növ təyini söz birləşməsi modelinə uyğun formalaşmış oykonimlər arasında hər iki komponenti isimlə ifadə olunan yaşayış məntəqə adları da – Qarıtəpə, Quzeyxırman, Güneyxırman və s. mühüm yer tutur. Bu tip oykonimlərdə həm təyin edən, həm də təyin olunan tərəf isimlərdən ibarət olur və onların semantik xüsusiyyətləri adların yaranma motivlərini müəyyənləşdirməyə imkan verir. Həmin oykonimlərdən bir neçəsinin etimoloji və struktur-semantik təhlili aşağıda təqdim olunur.

İkinci növ təyini söz birləşmələri əsasında yaranan oykonimlər.

Xocavənd rayonu oykonimlərinin müəyyən hissəsi ikinci növ təyini söz birləşmələri əsasında formalaşmışdır. Bu tip oykonimlərin əsas xüsusiyyəti onların strukturunda mənsubiyyət münasibətini ifadə edən sözdəyişdirici şəkilçilərin iştirak etməsidir. Birinci növ təyini söz birləşmələrindən fərqli olaraq, burada ikinci komponent mənsubiyyət şəkilçisi qəbul edir və komponentlər arasında daha sıx qrammatik əlaqə yaranır.

Rayon ərazisində qeydə alınmış Arpadüzü, Şahyeri, Daşbaşı, Binədərəsi və Dağdöşü kimi oykonimlər ikinci növ təyini söz birləşmələrinin məhsulu hesab olunur. Bu tip toponimlərin struktur-semantik təhlili zamanı onları təşkil edən kök morfemlərin və şəkilçilərin ayrıca nəzərdən keçirilməsi məqsədəuyğundur.

Belə ki, **Arpadüzü** oykonimi *arpa+düz+ü* modeli əsasında formalaşmışdır. Burada "arpa" sözü təyin edən tərəfi, "düz" sözü isə coğrafi obyekt bildirən əsas komponenti təşkil edir, "-ü" mənsubiyyət şəkilçisi isə ikinci növ təyini söz birləşməsinin qrammatik göstəricisi kimi çıxış edir.

Şahyeri (*şah+yer+i*) oykonimində "şah" sözü birinci komponent, "yer" sözü isə əsas coğrafi termin olmaqla mənsubiyyət şəkilçisi vasitəsilə birləşərək vahid toponim yaratmışdır.

Daşbaşı (*daş+baş+ı*) adında birinci tərəf təbii obyektin xüsusiyyətini bildirən "daş", ikinci tərəf isə məkan mənalı "baş" sözüdür. Mənsubiyyət şəkilçisi komponentlər arasında sintaktik əlaqəni təmin edir.

Binədərəsi (*binə+dərə+si*) oykonimi "binə" və "dərə" sözlərinin birləşməsindən yaranmış, "-si" şəkilçisi isə ikinci növ təyini söz birləşməsinin qrammatik əlaməti kimi çıxış etmişdir.

Dağdöşü (*dağ+döş+ü*) oykonimində isə "dağ" sözü ilə relyef termini olan "döş" sözü mənsubiyyət şəkilçisinin köməyi ilə əlaqələnmiş və nəticədə mürəkkəb quruluşlu yer adı formalaşmışdır.

Beləliklə, ikinci növ təyini söz birləşmələri əsasında yaranan oykonimlərdə mənsubiyyət şəkilçiləri mühüm struktur elementi kimi çıxış edir və bu xüsusiyyət həmin toponimləri birinci növ təyini söz birləşmələri əsasında yaranan oykonimlərdən fərqləndirir.

Xocavənd rayonu ərazisində qeydə alınmış oronimlərin böyük əksəriyyəti sintaktik yolla formalaşmışdır. Bu tip coğrafi adların yaranmasında müxtəlif nomenklatur terminlər mühüm rol oynayır. Həmin terminlər oronimlərin strukturunun əsas komponentlərindən biri kimi çıxış edərək coğrafi obyektlərin xarakterik xüsusiyyətlərini, relyef formalarını və məkan göstəricilərini ifadə edir.

Nomenklatur terminlərin iştirakı ilə yaranan yer adları Azərbaycan dilinin qrammatik qanunlarına uyğun şəkildə formalaşır. Belə adların yaranma prosesində sözlər arasında müxtəlif sintaktik əlaqələr qurulur və nəticədə yeni toponimik vahidlər meydana gəlir. Bu baxımdan nomenklatur terminlər yalnız coğrafi obyektin növünü bildirən leksik vahidlər deyil, eyni zamanda toponimyaratma prosesinin əsas elementlərindən biri hesab olunur. Onların iştirakı ilə yaranan yer adları həm dilin daxili inkişaf qanunauyğunluqlarını, həm də müəyyən ərazinin coğrafi xüsusiyyətlərini özündə əks etdirir.

Rayon ərazisində ən geniş yayılmış coğrafi terminlərdən biri "dağ" sözüdür. Bu termin Ağbaşı dağı, Ağburun dağı, Ərgünəş dağı, Boğurxan dağı, Böyük Kirs dağı, Çəməndağ dağı, Qaraçuq dağı və digər oronimlərin formalaşmasında iştirak etmişdir. Nümunələr göstərir ki, bu termin həm "dağ", həm də "dağı" variantlarında işlənərək birinci və ikinci növ təyini söz birləşmələri əsasında yeni oronimlər yaratmışdır.

Müsbət relyef formalarını ifadə edən "təpə" termini də rayonun oronimiyasında mühüm yer tutur. Adsız təpə, Daşlı təpə, Göy təpə, İlanlı təpə, Maraltəpənkimi adlar bu termin əsasında yaranmışdır.

Relyefin mənfi formalarını ifadə edən "dərə" termini də Xocavənd ərazisində geniş yayılmışdır. Arxac dərəsi, Atayurd dərəsi, Daşdəmir dərəsi, Dəhnə dərəsi, Dəyirman dərəsi və digər adlar bu qəbildəndir. Bu oronimlər ərazinin geomorfoloji quruluşunu və təbii xüsusiyyətlərini əks etdirir.

Rayonun oronimik sistemində "qaya" termini ilə yaranmış adlar da diqqət çəkir. Bu termin əsasən keçilməsi çətin olan daşlıq sahələri ifadə edir. Ağqaya, Ballı qaya, Böyük Qaya, Kar qaya kimi adlar həmin termin əsasında formalaşmışdır.

"Düz" termini isə hamar və nisbətən alçaq səthləri bildirən coğrafi vahidlərin adlandırılmasında istifadə edilmişdir. Ağyoxuş düzü, Alxan düzü, Arpadüzü, Bəhrəmli düzü, Çəkət düzü kimi oronimlər bu qrupa daxildir.

Xocavənd rayonunda rast gəlinən digər terminlərdən biri "qobu" sözüdür. Bu termin yarğan, çuxur və ya sel sularının təsiri ilə əmələ gəlmiş relyef formalarını ifadə edir. Ağ qobu, Çaqqal qobusu və Quru qobu kimi adlar həmin termin əsasında yaranmışdır.

Mikrooronimlərin formalaşmasında "yer" termini də mühüm rol oynayır. Bu tip adlar əsasən torpaq sahələrinin sahibi, istifadə məqsədi və ya ərazinin xarakterik xüsusiyyətləri ilə əlaqədar meydana çıxmışdır. Abdal qışlağı yeri, Ağbaş yeri, Bostan yeri, Cəfərin əkin yeri, Əlibaba yeri, Kənd yeri və digər nümunələr bunu təsdiqləyir. Bu adlarda həm antroponimlərdən, həm də relyef və təsərrüfat xüsusiyyətlərindən istifadə edilmişdir.

Xocavənd rayonunun oronim sistemində təbii landşaftı əks etdirən müxtəlif coğrafi terminlər mühüm yer tutur. "Meşə" termini ilə yaranan oronimlər əsasən ikinci növ təyini söz birləşməsi modelində formalaşmış və ərazinin bitki örtüyü ilə bağlı xüsusiyyətlərini əks etdirmişdir. Mikrooronimlər arasında "bağ" komponentli adlar daha çox müşahidə olunur ki, onların yaranmasında antroponimlər, etnonimlər, fitonimlər və digər toponimik vahidlər iştirak etmişdir. Relyefin alçaq sahələrini bildirən "çökək" termini də bir sıra oronimlərin formalaşmasına əsas olmuşdur. Rayon ərazisində hündürlük və yüksəkliklə bağlı obyektlərin adlandırılmasında "yal" termini də istifadə edilmişdir. Dağ keçidlərini bildirən "aşırım" termini ilə yaranmış oronimlər ərazinin relyef xüsusiyyətlərini əks etdirir. Dini inanclarla bağlı "pir" və "ocaq" terminləri əsasında formalaşan adlar rayonun mənəvi-mədəni dəyərlərini yaşadır. Eyni zamanda qala, məbəd, monastır, günbəz və türbə kimi tarixi-memarlıq obyektlərinin adları da Xocavəndin oronimik sistemində mühüm yer tutur.

Toplanmış sahə materialları və informator məlumatları əsasında müəyyən edilmiş Ağ cığır, Alban qəbiristanlığı, Alıqulu qışlağı, Gödək bazı, Hacı Əlikərəm yatağı, Xırmancıq gədiyi, Kərəm

çalı, Qalib çuxuru, Qaradolaq məzrəsi və Quruçay qırağı kimi adlar da rayonun zəngin mikrooronim sisteminin tərkib hissəsidir [1, s.48]. Bu nümunələr Xocavənd rayonunun toponimik mənzərəsinin müxtəlifliyi və zənginliyini aydın şəkildə nümayiş etdirir.

Azərbaycan hidronimiyası struktur baxımından zəngin və çoxşaxəli xüsusiyyətlərə malikdir. Su obyektlərinin adlarının əksəriyyəti bir neçə leksik vahidin birləşməsindən yaranmış mürəkkəb quruluşlu nominativ vahidlərdir. Hidronimlərin formalaşmasında xüsusi sözyaradıcı şəkilçilərin iştirak etməməsi onların digər toponim qruplarından fərqləndirici cəhətlərindən biridir. Bu adların tərkibində müxtəlif nitq hissələrinin iştirak etməsi onların həm quruluşuna, həm də semantik məzmununa təsir göstərir.

Xocavənd rayonunun hidronimik sistemində sintaktik yolla yaranan adlar üstünlük təşkil edir. Bu xüsusiyyət hidronimlərin struktur quruluşunun öyrənilməsi baxımından xüsusi maraq doğurur. Sintaktik üsulla formalaşan hidronimlər iki və ya daha artıq leksik vahidin qarşılıqlı əlaqəsi nəticəsində meydana gəlir və müəyyən qrammatik modellərə əsaslanır. Belə adlarda komponentlərdən biri adlandırılan su obyektinin fərqləndirici əlamətini ifadə etdiyi halda, digər komponent onun növünü göstərir. Nəticədə, yaranan hidronimlər həm semantik, həm də struktur baxımdan bütöv nominativ vahid kimi çıxış edir. Bu cür adların geniş yayılması Xocavənd rayonu hidronimlərinin əsasən mürəkkəb quruluşa malik olduğunu göstərir. Eyni zamanda, onların tərkibindəki leksik elementlər arasında mövcud olan sintaktik əlaqələr hidronimlərin yaranma prinsiplərinin müəyyənləşdirilməsində mühüm rol oynayır.

Hidronimik sistemdə adyaratma prosesinin əsas hissəsini sintaktik üsulla meydana gələn nümunələr təşkil etsə də, leksik yolla yaranmış su adları da mühüm yer tutur.

Azərbaycan hidronimlərinin yaranma mexanizmlərini araşdıran tədqiqatçılar bu adların müxtəlif struktur modellər əsasında formalaşdığını qeyd etmişlər. N.Əsgərov hidronimlərin sadə isim, sifət və saylar əsasında yarana bildiyini göstərmişdir [5, s.28]. İ. Bayramov isə Qərbi Azərbaycan hidronimlərini təhlil edərək tərkibində əlavə təyinedici ünsür olmayan sadə, düzəltmə və mürəkkəb söz formasında işlənən su adlarını leksik mənşəli hidronimlər kimi səciyyələndirmişdir [8, s.401].

T.Əhmədovun təsnifatında xüsusi yer tutan qruplardan biri də mürəkkəb quruluşlu və coğrafi nomen elementini özündə birləşdirən hidronimlərdir. Bu tip adlar iki və ya daha çox komponentin birləşməsi nəticəsində meydana gəlir. Onların tərkibində adətən bir tərəfdən su obyektinin növünü bildirən hidrotermin, digər tərəfdən isə həmin obyekti eyni kateqoriyaya aid digər coğrafi vahidlərdən fərqləndirən leksik vahid iştirak edir. Beləliklə, hidronim həm identifikasiyaedici, həm də xarakterizəedici funksiyanı yerinə yetirir. Mürəkkəb hidronimlər nominasiya prosesində ən məhsuldar modellərdən biri hesab olunur və struktur baxımından müxtəlif formalarda təzahür edir.

Bu təsnifat hidronimlərin daxili quruluşunun öyrənilməsinə, onların semantik yükünün müəyyənləşdirilməsinə və sistemli şəkildə qruplaşdırılmasına geniş imkan yaradır. Eyni zamanda, su obyektlərinin adlarının tipoloji və morfoloji xüsusiyyətlərinin araşdırılmasında mühüm metodoloji baza rolunu oynayır.

Toponimlərin digər qrupları ilə müqayisədə hidronimlərdə fərqləndirici komponentin iştirakı daha sabit xarakter daşıyır. Buna görə də su obyektlərinin adlarının böyük əksəriyyəti sintaktik yolla formalaşmış təsiri bağışlayır. Lakin bəzi hallarda hidroterminlərin əsas sözlə bitişik şəkildə işlənməsi onların quruluşunun ayrıca qiymətləndirilməsini zəruri edir. Bu xüsusiyyət hidronimlərin struktur analizində xüsusi diqqət tələb edən məsələlərdən biridir.

Azərbaycan hidronimiyasında işlənən terminoloji fondun əsas hissəsini milli mənşəli hidroterminlər təşkil edir. Çay, göl, bulaq, su, arx, dəniz, bataqlıq, quyu və digər bu qəbildən olan sözlər su obyektlərinin adlandırılmasında aparıcı mövqeyə malikdir. Ayrı-ayrı hallarda bəzi hidronimlər müstəqil şəkildə işlənə bilsə də, ümumilikdə su obyektlərinin adlarının formalaşmasında hidroterminlər əsas nominativ vasitə kimi çıxış edir. Bu baxımdan hidroterminlər hidronimik sistemin struktur əsasını təşkil edən və onun formalaşmasını təmin edən başlıca dil vahidləri hesab edilə bilər.

Nəticə: Xocavənd rayonunun toponimik sisteminin araşdırılması göstərir ki, sintaktik üsul bölgədə toponim yaratmaq üçün ən məhsuldar vasitələrdən biridir. Rayon ərazisində qeydə alınmış toponimlərin əhəmiyyətli hissəsi iki və ya daha çox leksik vahidin birləşməsi əsasında formalaşmışdır. Bu xüsusiyyət xüsusilə oronimlərdə, hidronimlərdə və mikrotoponimlərdə daha qabarıq şəkildə özünü göstərir. Sintaktik üsulla yaranmış adların böyük əksəriyyəti təyini söz birləşmələri modelinə uyğun qurulmuşdur. Həmin toponimlərdə təyinedici komponent coğrafi obyektin xarakterik əlamətlərini ifadə edir. Coğrafi nomenlər isə obyektin növünü müəyyənləşdirərək adın semantik bütövlüyünü təmin edir. Toponimlərin tərkibində dağ, dərə, qaya, təpə, bulaq, çay, göl, meşə və bağ kimi coğrafi terminlər geniş şəkildə işlənmişdir. Bu terminlər rayonun təbii-coğrafi xüsusiyyətlərinin dil faktlarında əks olunmasına şərait yaratmışdır. Sintaktik quruluşlu toponimlərdə antroponim, etnonim, fitonim və zoonim mənşəli komponentlər də mühüm yer tutur. Bu isə bölgənin tarixi, etnik və mədəni xüsusiyyətlərinin toponimiyada qorunub saxlandığını göstərir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, sintaktik yolla formalaşmış adlar yüksək informativlik xüsusiyyətinə malikdir. Belə toponimlər obyekt haqqında həm nominativ, həm də təsviri məlumat verir. Onların semantik quruluşunda ərazinin relyefi, flora və faunası, təsərrüfat həyatı və etnik tərkibi öz əksini tapmışdır. Sintaktik üsulla yaranmış toponimlər Xocavənd rayonunun qədim tarixi və milli-mədəni yaddaşı haqqında qiymətli məlumat mənbəyi kimi çıxış edir. Nəticə etibarilə, sintaktik model Xocavənd toponimlərinin formalaşmasında aparıcı rol oynayan və onların struktur-semantik xüsusiyyətlərini müəyyən edən əsas dil mexanizmi hesab olunmalıdır.

Ədəbiyyat siyahısı

1. Allahverdiyeva, N.E. Xocavənd rayonu toponimləri kontekstində nomenklatur terminlər // – Bakı: Dil və ədəbiyyat, – 2024. № 2 (125), – s. 46-50.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: [2 cilddə] / Red. hey. sədri R.Z.Əliyeva. – Bakı: Şərq-Qərb, – c. 1. – 2007. – 300 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: [2 cilddə] / Red. hey. sədri R.Z.Əliyeva. – Bakı: Şərq-Qərb, – c. 2. – 2007. – 304 s.
4. Bayramov, A.Ə. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri) / A.Ə.Bayramov. – Sumqayıt: Göytürk, – 1996. – 248 s.
5. Bayramov, İ.M. Qərbi Azərbaycanın toponimlər sistemi / İ.M.Bayramov. – Bakı: Elm, – 2005. – 432 s.
6. Əhmədov, T.M. Azərbaycan toponimikasının əsasları / T.M.Əhmədov. – Bakı: BDU, – 1991. – 318 s.
7. Əsgərov, N.Ə. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri / N.Ə. Əsgərov. – Bakı: Elm, – 2005. – 485 s.
8. Əsgərov, N.Ə. Azərbaycan hidronimləri / N.Ə.Əsgərov. – Bakı: ADPU, – 2002. – 146 s.
9. Məşədiyev, Q.İ. Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili (Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsasında) / Q.İ.Məşədiyev. – Bakı: Elm və təhsil, – 2010. – 232 s.

N.Allahverdiyeva

Toponyms of Khojavend district formed through the syntactic method

Summery

The topoformants involved in the formation of complex oikonyms and the lexical units constituting them display considerable diversity in terms of their lexical-semantic and lexical-grammatical characteristics. In the structure of such oikonyms, the second component functioning as a topoformant is predominantly expressed by nouns and usually indicates the type, nature, or geographical category of the settlement. The first component, on the other hand, is mainly

represented by nouns and adjectives, although in some cases it may also be expressed by numerals or substantivized forms of other parts of speech.

There are also differing scholarly approaches to word formation and the development of compound names in the Azerbaijani language. According to R. Aliyeva, every language possesses its own structural regularities determined by its internal linguistic system. Since Azerbaijani belongs to the agglutinative language family, both the functional role of affixes and word order are of particular importance. The scholar notes that a certain semantic hierarchy can be observed in the arrangement of affixes: those expressing more concrete meanings tend to occur closer to the root, whereas affixes conveying abstract or generalized meanings are positioned farther from it. This principle is also reflected in the structure of toponyms and contributes to specific patterns in the arrangement of their constituent elements.

One of the noteworthy features observed in a group of compound toponyms is the repetition of geographical nomenclature terms within their structure. Certain geographical terms function not only as independent lexical units but also as components in the formation of new settlement names. However, despite the presence of such terms within the toponym itself, an additional word denoting the same geographical category is often attached to the name. As a result, semantic redundancy arises between the settlement name and the element specifying its type. For example, in names such as *Ağkənd village*, *Ağcakənd village*, and *Qarakənd village*, the component *kənd* ("village") is already incorporated into the oikonym, yet it is repeated separately to indicate the type of settlement. This phenomenon gives rise to tautological structures in toponymy and may be regarded as a significant linguistic feature for the study of place-name nomination. Such examples preserve traces of historical naming processes while simultaneously serving the purpose of providing a clearer administrative and geographical classification of settlements.

Keywords: *oikonym, topoformant, compound toponyms, geographical nomenclature, tautological toponyms.*

Н.Аллахвердиева

Топонимы Ходжавендского района, образованные синтаксическим способом

Резюме

Топоформанты, участвующие в образовании сложных ойконимов, а также лексические единицы, формирующие их структуру, отличаются разнообразием своих лексико-семантических и лексико-грамматических характеристик. В составе подобных ойконимов второй компонент, выступающий в функции топоформанта, в большинстве случаев выражается существительным и указывает на тип, характер или географическую принадлежность населённого пункта. Первый компонент преимущественно представлен существительными и прилагательными, однако в отдельных случаях может быть выражен числительными, а также субстантивированными формами других частей речи.

В научной литературе существуют различные подходы к вопросам словообразования и формирования сложных наименований в азербайджанском языке. По мнению Р. Алиевой, каждый язык обладает собственными закономерностями, обусловленными его внутренней структурой. Поскольку азербайджанский язык относится к агглютинативным языкам, особое значение в нём имеют как функциональная нагрузка аффиксов, так и порядок расположения слов. Исследователь отмечает, что в последовательности аффиксов наблюдается определённая семантическая закономерность: аффиксы, выражающие более конкретное значение, располагаются ближе к корню, тогда как аффиксы с более абстрактным и обобщённым значением занимают более удалённую позицию. Данная особенность находит отражение и в структуре топонимов, определяя закономерности расположения их компонентов.

Одной из примечательных особенностей некоторых сложных топонимов является повторение географических номенклатурных терминов в их составе. Ряд географических терминов не только функционирует как самостоятельная лексическая единица, но и участвует в образовании новых названий населённых пунктов. Однако, несмотря на наличие такого термина в самом топониме, к нему нередко дополнительно присоединяется слово, обозначающее тот же тип географического объекта. В результате возникает семантическая избыточность между названием населённого пункта и компонентом, указывающим на его категорию. Так, в названиях *Агкенд кенд*, *Агджакенд кенд*, *Каракенд кенд* компонент *кенд* («село») уже входит в состав ойконима, однако дополнительно повторяется для обозначения типа населённого пункта. Данное явление приводит к образованию тавтологических топонимов и представляет значительный интерес для изучения процессов топонимической номинации. Подобные примеры, с одной стороны, сохраняют следы исторических процессов наименования, а с другой — способствуют более чёткому административному и географическому разграничению населённых пунктов.

Ключевые слова: *ойконим, топоформант, сложные топонимы, географическая номенклатура, тавтологические топонимы.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***fil.ü.f.d., prof. Ədalət Tahirzadə***
fil.ü.f.d., dos. Təhminə İsmayılova